MƏHƏMMƏD FÜZULİ - 530

**Azərbaycan ədəbi-bədii fikrinin təşəkkülündə müstəsna yeri olan, Yaxın və Orta Şərq ədəbiyyatının inkişafına mühüm təsir göstərən mütəfəkkir şair Məhəmməd Füzuli Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi əvəzsiz dəyərdir. O, anadilli poeziyanın ən mükəmməl nümunələrini yaratmış, onu zənginləşdirmiş,** yeni **zirvələrə yüksəltmişdir.**



Məhəmməd Füzuli şəxsiyyəti, onun yaradıcılığı daima Azərbaycan dövlətinin diqqətində olmuşdur. Onun 500 illik yubileyinin Ümummilli lider Heydər Əliyevin 16 mart 1994-cü il tarixli 118 saylı sərəncamı, 530 illik yubileyinin isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 yanvar 2024-cü il tarixli sərəncamı ilə təntənəli şəkildə qeyd edilməsi bunun bariz nümunəsidir.

Onu da qeyd edək ki, beynəlxalq nüfuzlu UNESCO təşkilatı 1994-cü ili "Füzuli ili" elan etmiş, şairin 500 illik yubileyi bu təşkilat tərəfindən qəbul olunan qərarla dünya miqyasında yüksək səviyyədə qeyd olunmuşdur. Bu tədbir həm də müstəqil

# Məhəmməd Füzuli irsi biblioqrafik mənbələrdə

Azərbaycan Respublikasında baş tutan ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur.

Füzuli irsinin nəşri də daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuş, müxtəlif illərdə əsərlərinin nəfis tərtibatla çapı gerçəkləşdirilmişdir. 1944, 1958, 1988, 1992, 2005, 2013-cü illərdə dahi şairin əsərləri çoxcildliklərlə nəşr olunmuşdur ki, bu da Azərbaycan dövlətinin öz mütəfəkkirinə verdiyi dəyərin bariz nümunəsidir.

Məhəmməd Füzuli yaradıcılığını özündə əks etdirən bir neçə informasiya resursu vardır. Hələ XIX əsrdə Misirin məşhur Xidviyyə kitabxanasında uzun illər işləmiş əslən azərbaycanlı olan, ərəb, fars, türk dillərinin mahir bilicisi Əli Hilmi burada saxlanılan qədim əlyazmaları qaydaya salaraq böyük həcmli kitab kataloqu hazırlamış və onu 1888-1889-cu illərdə çap etdirmişdir. Bu kataloqda müsəlman Şərqinin bütün nəhəng sənətkarlarının, o cümlədən, ulu Füzulinin də əlyazmaları öz əksini tapmışdır.

Məşhur fransız şərqşünası Bloşenin 1932-1933-cü illərdə Parisdə çap olunmuş "Milli kitabxanada türk əlyazmaları kataloqu" adlı iki cildlik biblioqrafik kitabına dahi şairin kitabxanada saxlanılan bütün əlyazmaları daxil edilmişdir.

E. Bertelsin 1930-cu ildə nəşr olunmuş "Füzuli külliyyatından yeni əlyazmalar" məqaləsində, 1955-ci ildə Kembricdə nəşr olunmuş "İslam üzrə göstərici"də və "İslam mövzusunda dövri mətbuatda və digər kollektiv nəşrlərdə gedən məqalələrin kataloqu" əsərlərində Füzuli haqqında ədəbiyyatın və əsərlərinin biblioqrafik resursları yaradılmışdır.

1956-cı ildə türk füzulişünası və biblioqrafı Müjgan Cumburun İstanbulda nəşr etdirdiyi "Füzuli haqqında bir biblioqrafiya" əsəri də şair haqqında tərtib olunmuş biblioqrafik resursların mükəmməllərindəndir. Burada şairin Türkiyədə çap olunmuş bütün əsərləri və haqqında dərc edilmiş tədqiqat materialları toplanmışdır.

1995-ci ildə İran İslam Respublikasının Milli Kitabxanasında biblioqraf Seyid Məhəmməd Məhdəviferin "Füzuli Bağdadi" adlı biblioqrafik göstəricisi nəşr olunmuşdur. Göstəricidə Füzulinin İranın elm və mədəniyyət mərkəzlərində qorunan müxtəlif əlyazmaları İranda 1995-ci ilədək nəşr olunmuş 20 adda kitabının 77 nəşri, İran Milli Kitabxanasında qorunan 16 adda əsərinin nadir nüsxələri, mikrofilmlər, şairin həyat və fəaliyyətinə həsr olunmuş 34 müəllifin 77 adda əsəri toplanmışdır. Bütün bu məlumatları biz Fazil Məmmədovun 1996-cı ildə nəşr etdirdiyi "Məhəmməd Füzuli əsərlərinin nəşri: biblioqrafik göstərici"yə yazdığı ön sözdən əldə etmişik.

Azərbaycanda isə Məhəmməd Füzuliyə həsr olunmuş ilk biblioqrafik məlumatı biz "Məhəmməd Füzuli 1498-1556: izahlı biblioqrafik göstərici"dən alırıq. Göstərici 1958-ci ildə şairin vəfatının 400 illiyi münasibətilə Azərbaycan SSR Mədəniyyət Nazirliyi M.F.Axundov adına Azərbaycan Respublika Kitabxanası (Milli Kitabxana - red.) tərəfindən nəşrə hazırlanmışdır. Göstəricinin tərtibçisi Ə.Xələfovdur.

Füzulinin dövrü, sələfləri, müasirləri, davamçıları, həyat və yaradıcılığı, ən qədim əlyazmaları, yeni nəşrləri,eləcə də şairin rus dilində nəşr edilmiş əsərləri və haqqında nəşr olunmuş materialların da yer aldığı biblioqrafik resurs geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici biblioqrafik göstəricilərin tərtibi prinsiplərinə verilən tələblərə uyğun hazırlanmasa da, özündə Füzulinin həyat və yaradıcılığı haqqında çoxsaylı mənbələri əks etdirir. Biblioqrafik resursda hər başlığın adına uyğun ədəbiyyatların biblioqrafik təsviri verilmişdir.

Bölmələr arasında "Görkəmli alim, ədəbiyyatşünas, yazıçı və şairlər Füzuli haqqında" adlı bölmə verilmiş, burada C.Məmmədquluzadə, C.Cabbarlı, Ə.Cavad, S.Vurğun, A.Krımski, P.Hammer, E. Braun, E.Kibb kimi mütəfəkkirlərin Füzuli haqqında fikirləri yer almışdır. Qeyd edək ki, bu bölmə kitabın tərtibi prinsiplərinə uyğun olaraq öndə verilsəydi, daha məqsədəuyğun olardı.

Bu bölmədən sonra isə "Füzulinin bədii nəsri","Füzulinin dili", "Füzuli əsərlərinin ən qədim əlyazmaları", "Füzulinin əsərlərinin nəşri", "Şairin əsərləri", "Şairin haqqında yazılmış ədəbiyyatın qısa siyahısı", "Füzuliyə həsr edilmiş şeirlər", "Rus dilində Füzulinin əsərləri və onun haqqında ədəbiyyat" kimi bölmələrdə müvafiq mənbələr toplanmışdır.

Ümumilikdə bu biblioqrafik resursa şairin həyat və yaradıcılığını özündə əks etdirən 208 mənbə daxil edilmişdir. Heç bir yardımçı aparatın verilmədiyi bu resursda bölmələrin qarışıqlığı ondan istifadəni çətinləşdirir. Lakin buna baxmayaraq, ölkəmizdə Füzuli irsinin toplandığı ilk biblioqrafik qaynaq kimi diqqətəlayiqdir.

Mərhum akademik Həmid Araslının 1958-ci ildə nəşr olunmuş "Böyük Azərbaycan şairi Füzuli" əsərinə əlavə etdiyi "Kitabiyyat"ı da mütəfəkkir şairə həsr olunmuş ikinci biblioqrafik informasiya resursu kimi dəyərləndirə bilərik.

Kitabda verilən bu bölmədə mənbələr üç başlıq altında qruplaşdırılıb:

Füzulinin nəşr olunmuş əsərləri;
Füzuli haqqında tədqiqat əsərləri;
Təzkirəçilər Füzuli haqqında.

Birinci bölmədə M.Füzulinin nəşr olunmuş 61 əsəri haqqında məlumat verilir. Buradakı birinci əsər "Söhbətül əsmar" ın Təbriz nüsxəsidir. Daşbasması üsulu ilə nəşr olunmuş əsərin nəşr tarixi yoxdur. Digər əsərlər isə 1828-ci ildən başlayaraq xronoloji ardıcıllıqla əks olunmuşdur.

"Füzuli haqqında tədqiqat əsərləri" bölməsində 101 mənbə toplanmışdır. Bölmədə A.Sürün, Aqbal Oktayın, Həmid Araslının, Atacın, Ataş Əhmədin, Baqi Ədib Alinin, Nihad Sami Baharlının, Batimani Bürhanəddinin, E.Bertelsin, Y.V.Çəmənzəminlinin, Qaraxan Əbdülqadirin, Feyzulla Qasımzadənin, Əzəl Dəmirçizadənin, Əmin Abidin, Mirzə İbrahimovun, Fuad Köprülüzadənin, Kürkçüoğlu Kamal Ədibin, Məhəmməd Tahir Bursalının, Mir Cəlalın, Əziz Mirəhmədovun, Süleyman Fəhminin, Abdulla Şaiqin və digərlərinin Füzulinin lirizminə, təmsillərinə, əlyazmalarına, nəşrinə, mühiti və həyatına, dilinə həsr olunmuş çoxsaylı məqalə və kitablar öz əksini tapmışdır.

Üçüncü bölmə "Təzkirəçilər Füzuli haqqında" adlanır və özündə 16 mənbəni birləşdirir.

Şairin 500 illiyi münasibətilə 1996-cı ildə "Maarif" nəşriyyatında işıq üzü görmüş "Məhəmməd Füzuli əsərlərinin nəşri: biblioqrafik göstərici" adlı biblioqrafik resursu bu sahədə Azərbaycanda tərtib olunmuş ən mükəmməl mənbə hesab etmək olar.

Biblioqrafik resursa dünyanın 24 ölkəsinin 187 nəşriyyatında və redaksiyasında hazırlanıb 63 mətbəəsində çap olunmuş 650 müəllifin 21 dildə yazılmış 2050 mənbəsi daxil edilmişdir.

Biblioqrafik göstərici iki hissədən ibarətdir. Birinci hissədə şairin əsərləri, seçilmiş əsərləri, məcmuələrdə, müntəxəbatlarda, ədəbiyyat, ədəbi qiraət və oxu kitablarında toplanmış əsərləri, ayrı-ayrı əsərləri, kitabları, müxtəlif nəşrlərdə verilmiş əsərləri, musiqi bəstələnmiş əsərləri, nəşr ili, nəşr yeri göstərilməyən əsərləri, dövri mətbuat səhifələrində nəşr olunmuş əsərləri, başqa xalqların dillərində nəşr olunmuş əsərləri 85 adda bölmədə və yarımbölmədə verilmişdir.

"Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında ədəbiyyat" adlı ikinci hissədə onun həyatı və yaradıcılığı, ata yurdu və məzarı, poeziyası, lirikası, nəsr əsərləri, ədəbi dili, alleqorik əsərləri, təmsilləri haqqında materiallar, ayrı-ayrı əsərləri, divanları, əlyazmaları, dünya kitabxanalarında saxlanılan əsərlərinə, ədəbi irsinin öyrənilməsinə dair ədəbiyyat, habelə dahi sənətkara həsr olunmuş bədii əsərlər, incəsənət əsərləri və onun ümumdünya şöhrəti haqqında sənədlər 101 adda bölmədə və yarımbölmədə yerləşdirilmişdir.

Nəşri 4 bölmədə və 84 yarımbölmədə qruplaşdırılmış zəngin köməkçi göstəricilər tamamlayır.

Məhəmməd Füzulinin 500 illiyi münasibətilə Azərbaycan Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi tərəfindən 1996-cı ildə "Məhəmməd Füzuli: biblioqrafik göstərici" nəşr olunmuşdur. Bu biblioqrafik resursda materiallar mövzular üzrə bölünmüş, hər mövzuya aid ədəbiyyat əlifba sırası ilə verilmişdir.

"Əsərləri" bölməsində Füzulinin lirikası, poemaları, Azərbaycan ədəbiyyatında yeri, alleqorik əsərləri, dil məsələləri, Füzuli və Yaxın Şərq ədəbiyyatı, şairin ictimai, fəlsəfi, pedaqoji və tibbi görüşləri, Füzulinin müasirləri və s. məsələlər haqqında materiallar ayrı-ayrı başlıqlar altında qruplaşdırılmışdır.

Ümumilikdə biblioqrafik resursda 579 mənbə təsvir olunmuşdur. Göstəricidə heç bir köməkçi aparat tərtib olunmamışdır.

"Məhəmməd Füzuli kolleksiyasının kataloqu" adlı informasiya resursu da zənginliyi ilə diqqət çəkir. Kataloq Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun materialları əsasında hazırlanmışdır.

Məhəmməd Füzulinin 530 illiyi münasibətilə hazırlanan bu kataloqa 116 türkdilli, 16 farsdilli əlyazma, həmçinin, M.Füzuli kolleksiyasına daxil edilmiş incəsənət nümunələri: illüstrasiyalar, şairin portret xalçası, şəkli olan dekorativ güldan, bədii oyma işləri, şairin müxtəlif illərə aid portretləri (bu portretlərdən biri 1916-cı ildə Xalq rəssamı Əzim Əzimzadə tərəfindən çəkilmişdir - red.), Özbəkistan Prezidenti Şafkat Mirziyoyevin Azərbaycan Prezidenti İlham Əliyevə hədiyyə etdiyi XIX əsr əlyazmasının faksmilesi və başqa sənədlər toplanmışdır.

Kataloqu tarix üzrə fəlsəfə doktoru, dosent Niqar Babaxanova tərtib etmişdir.

Bütün bu sadalananlardan başqa,Məhəmməd Füzulinin 530 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən https://muhammadfuzulu.preslib.az adlı elektron resurs da hazırlanmışdır.

Elektron resursda şairin əsərləri toplanmışdır. Materiallar "Kitablar" və "Məcmuələr" adlı başlıqlar altında Azərbaycan, rus və digər dillərdə qruplaşdırılmışdır. Materialların düzülüşündə əks-xronoloji prinsipdən istifadə edilmişdir.

Resursda toplanan kitablar və məcmuələrdə olan mənbələrin sayı 400-ə yaxındır. Elektron resurs mütəxəssisləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Dünya ədəbiyyatı klassikləri sırasında özünəməxsus yeri olan Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında XIX, XX və XXI əsrlərdə hazırlanmış informasiya resurslarının hər biri fizulisevərlər, fizulişünaslar üşün dəyərli mənbələrdir. Əminik ki, zaman-zaman bu resursların sayı və tərkibi yeni-yeni məlumatlarla zənginləşəcək və Məhəmməd Füzuli yaradıcılığının öyrənilməsində əsaslı mənbə olacaqdır.

**Şəhla TAHİRQIZI**
**AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent**